Sort Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda Qreenqold hibridindən fərdi ailəvi seçmə yolu ilə yaradılmışdır. 1981-ci ildən Kabardino-Balkar Muxtar vilayətində və Azərbaycan respublikasında rayonlaşmışdır.

Sort ortayetişəndir, kütləvi cücərmədən tək-tək başların yetişməsinə qədər 98-102 gün, kütləvi yetişməsinə qədər 105-115 gün olur. Baş bağladıqda yastı-dəyirmi formada, daxili rəngi sarımtıl-ağ, kütləsi 1,3-3,4 kq, bərk olur, daxili zoğu qısadır.



Məhsuldarlığı hər hektardan 370-560 sentnerdir. Məhsul bir vaxtda yetişir, partlamağa, saxlanılmağa, daşınmağa və xəstəliklərə davamlıdır.

Kələm bitkisini özünün və ya xaççıçəklilər fəsiləsindən olan digər bitkilərin sahəsinə 3-4 ildən tez qaytarmaq olmaz. Onun üçün ən yaxşı sələflər paxlalı bitkilər, xiyar, soğan, kartof, çuğundur, pomidor və çoxillik otlar hesab olunur.

Yazlıq əkilən bitkilərin yeri düz, küləklərdən qorunmuş, torpağı strukturlu, münbit və alaqsız olmalıdır. Azərbaycan sortunun şitilləri soyuq şitilliklərdə yetişdirilir. Onun səpin müddəti zonalardan asılı olaraq 20-30.IV, 5-10.VI, əkini isə 5-15. VI, 5-10. VII-a qədər aparılmalı, əkin sxemi isə 70x40sm olmalıdır.

Bitkilərə qulluq işləri torpağın yumşaldılmasından, əlavə qida və su verilməsindən, alaqlara, ziyanvericilərə və xəstəliklərə qarşı mübarizədən ibarətdir.

Kələm bitkisi sırf carpaz tozlanan bitki olduğu üçün toxum istehsalı ilə məşğul olduqda təcrid məsafəsini nəzərə almaq lazımdır.

Kələm toxumu istehsal edərkən, onun səpin keyfiyyəti, cücərmə enerjisi, cücərmə qabiliyyəti, toxumların həyatiliyi, toxumların təmizliyi və s... keyfiyyətlər nəzərə alınmalıdır.

Kələm bitkisi ikiillik bitki olduğu üçün I il özü əkilib, sorta məxsus anaclıq bitkilər seçilir, II il isə bu anaclıq bitkilər izolyasiyaya əməl edilməklə toxumluq sahələrdə əkilir.

Bir hektar əkilmiş toxum sahəsindən 10 sentner, bəzəndə 20 sentner kələm toxumu almaq olar.

Bir toxumluq kələm bitkisindən 40-50q, bəzəndə 100q-a qədər toxum almaq olar. Kələm toxumu öz cücərmə qabiliyyətini 4-5 il saxlaya bilir.

Azərbaycan sortunun bioloji və təsərrüfat əhəmiyyətli göstəriciləri

Əsas bioloji və təsərrüfat əhəmiyyətli göstəricilər	***Faktiki göstəricilər***
I fazalar üzrə vegetasiya müddətləri, günlə	
-yetişmə qrupu (tez, orta, ortatez, ortagec, gec);	Ortayetişən
- səpindən kütləvi çıxışa qədər;	2-3
- kütləvi çıxışdan baş kələmin texniki yetişkənliyinə qədər;	98-102
- kütləvi çıxışdan baş kələmin kütləvi yetişkənliyinə qədər;	105-115
- kütləvi çıxışdan I yığıma qədər;	105-107
- birinci yığımdan məhsulun 25% yığımına qədər;	20-23
- məhsulun 25% yığımdan 75% yığımına qədər;	40-45
- məhsulun eyni vaxtda yetişməsi müddəti; (yəni texniki yetişmənin başlanğıcından kütləvi yetişkənliyə qədər.	16-20
- baş bağlama (məhsul vermə) müddəti;	80-85
II Ümumi məhsul, s/ha	300-350
- birinci yığılan məhsul, s/ha;	93-100
- əmtəəlik məhsul, s/ha	290-330
- bir başın çəkisi, kq-la;	3,2-3,5
- ümumi bitkilərin sayından texniki yetişən başın faizi	95-97
III Konservləşdirilmiş məhsulun ümumi qiyməti, balla;	4,5-4,8
IV Bitkidə üstünlük təşkil edən xəstəlik və zədələnmə faizi;	1,8-3,0
V Mexanikləşdirilmiş yığım üçün sortun əlavə yararlılıq göstəriciləri	Xarici özəyin hündür olması
a) yarpaq ayasının diametri, sm;	25-30
b) kələmin hündürlüyü, sm;	17-23
c) kələmin diametri, sm	18-25
j) kələmin diametrinin variasiya əmsalı, faizlə	20-25
d) kələmin çəkisinin variasiya əmsalı, faizlə	2,5-3,5
e) xarici özəyin uzunluğu, sm	15-18
ə) özəyin xarici uzunluğunun variasiya əmsalı	12-15
t) bir dəfə yığılan ümumi məhsul, s/ha	48-50
bir dəfə yığılan əmtəəlik məhsul, s/ha	40-45
VI məhsulun keyfiyyəti	
- dequstasiya qiyməti (5 baldan)	
a) təzə	,7-4,8
b) duza qoyulmuş	,6-4,7
ç) birləşmiş halda	,5-4,6
VII Tərkibi	
a) quru maddə, faiz	6,2-6,5
b) ümumi şəkərlilik, faiz	3,0-3,2
v) vitamin C, mq faiz	46,1-47,0
q) saxaroza, faiz	0,15-0,2
c) ümumi azot, faiz	1,2-1,4
Bir bitkidə olan toxumun miqdarı, q	25-45
Toxum məhsulu, s/ha	10,0-20,0
1000 ədəd toxumun çəkisi, q	2,0-5,0

Azərbaycan Respublikası
Kənd Təsərrüfatı Nazirliyi
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

Yazlıq ağbaş kələmin AZƏRBAYCAN sortu